# Yazıçı-publisist ilə görüş

Avropa Azərbaycan Məktəbində tanınmış yazıçı-publisist Mustafa Çəmənli ilə görüş keçirilib. Təhsil nazirinin "Ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı tədbirlər barədə" əmrinə müvafiq olaraq keçirilən görüşdə məktəbin 5-9-cu sinif şagirdləri iştirak edirdi.



Azərbaycan dili və ədəbiyyat kafedrasının təşəbbüsü ilə baş tutan görüşü həmin kafedranın rəhbəri Hüseyn Şahbəndəyev açaraq bildirdi ki, bu görüşdən gözləntimiz məktəblilərin vətənpərvərlik hisslərini inkişaf etdirmək, onların mütaliə vərdişlərini yaxşılaşdırmaq və şagirdlərimizi kitab oxumağa həvəsləndirməkdir.

Görüş öncəsi məktəblə qısa tanışlıq zamanı yazıçı həm tədris binasının maddi-texniki imkanları, həm məktəb kitabxanasının genişliyi və zənginliyi qarşısında heyrətə düşdüyünü etiraf etdi. Özü ilə gətirdiyi 40-a yaxın kitabı şagirdlərə-kitabxanaya hədiyyə etdi.

Görüş ərəfəsində şagirdlər müəllimlərin tövsiyəsi ilə müəllifin "Xallı gürzə", "Ölüm mələyi", "Mübariz" və "Üç yaşlı əsir" əsərlərini oxumuş, yaradıcılığı ilə yaxından tanış olmuşdular. Bunun nəticəsində yazıçı-publisistlə gözlənildiyindən də hərarətli saatlar yaşandı. Xüsusilə yazıçının Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr olunmuş "Mübariz" sənədli povesti şagirdlərin dərin marağına səbəb oldu.

Tədbirin ssenarisi 5-9-cu siniflərin hər birinin ayrıca təqdimatı üzərində qurulmuşdu. "Xallı gürzə" əsəri əsasında 7-ci sinif şagirdlərindən Məhəmməd Bəşirovun, Alpay Səfərlinin, İsmayıl İsmayılovun, Ucal Mustafayevin, Məhəmməd Yaqubzadənin, Toğrul Həsənlinin hazırladıqları səhnəcik bir-biri ilə didişən xanların Vətəni uçuruma sürüklədiyini göstərməklə müstəqil Azərbaycanda vətəndaş birliyinin son dərəcə vacib olduğuna açıq bir çağırış təsiri bağışladı. Ümumiyyətlə, tədbirdəki bütün çıxışlar həm şagirdlərimizin istedadının, həm də müəllimlərimizin zəhmətinin təzahürü kimi yaddaqalan idi.

6-cı sinif şagirdi Xədicə Şıxəliyevanın ifasında Azərbaycan dili və ədəbiyyat müəllimi Hüseyn Müseyib oğlunun Mübariz İbrahimova həsr etdiyi "Qurban olum" şeiri də tədbirin təsirli məqamlarından oldu:

*Oğul düşmən çəpəri*
*Qəddinə qurban olum.*
*Sipər etdin sinəni,*
*Şəstinə qurban olum.*

*Neçə səngər adladın,*
*Düşmənləri odladın,*
*Sənin kimi övladın*
*Adına qurban olum.*

Şagirdlərin çıxışlarından riqqətə gələn yazıçı görüşün sonunda: "Mübariz" povesti mənimlə məktəbli balalarımız arasında sıx bir yaxınlıq yaratmışdır. Bu səmimiyyətə Avropa Azərbaycan Məktəbinin şagirdləri ilə görüşdə bir daha şahid oldum", - deyə fikirlərini bölüşdü, görüşün təşkili üçün məktəbin rəhbərliyinə, müəllim və şagirdlərə minnətdarlığını bildirdi.

Məktəbin İR üzrə direktoru Amalya Sezgin və orta məktəb pilləsinin direktoru J.Anderson məktəblilərlə görüşə vaxt ayırdığı üçün Mustafa Çəmənliyə təşəkkür etdilər.

**Hüseyn ŞAHBƏNDƏYEV,**
*Avropa Azərbaycan Məktəbinin Azərbaycan dili və ədəbiyyat kafedrasının rəhbəri, əməkdar müəllim*